# "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

"Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

həmin Qanunun 4-cü maddəsinin ikinci hissəsinin ikinci abzasında nəzərdə tutulmuş "Vərəm xəstəliyinin yayılmasının qarşısının alınması üzrə Milli Proqram"ın qəbul edilməsini təmin etsin;

həmin Qanunun 13-cü maddəsinin birinci hissəsində nəzərdə tutulmuş ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsini qadağan olunan peşə və vəzifələrin siyahısını müəyyən etsin;

həmin Qanunun 14-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş vərəm xəstəliyinə tutulmuş işləməyən şəxslərə müavinətin verilməsi qaydası və şərtlərini müəyyən etsin;

bu Fərmanın 2-ci bəndində Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərə dair müvafiq normativ hüquqi aktların işlənib hazırlanmasını və təsdiq edilməsini təmin etsin;

həmin Qanunun 8-ci maddəsinin altıncı hissəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanlar"ının səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanlarına dair təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

*2. Müəyyən edilsin ki:* [1]

*2.1. "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin dördüncü hissəsində, 11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində və ikinci hissəsində, 14-cü maddəsinin üçüncü hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;*

*2.2. həmin Qanunun 5-ci maddəsinin ikinci hissəsində, 6-cı maddəsinin ikinci hissəsində, 7-ci maddəsinin birinci hissəsində, 8-ci maddəsinin dördüncü hissəsində, 10-cu maddəsinin üçüncü hissəsində, 13-cü maddəsinin birinci və altıncı hissələrində, 14-cü maddəsinin dördüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;*

*2.3. həmin Qanunun 5-ci maddəsinin birinci hissəsində, 10-cu maddəsinin birinci və ikinci hissələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;*

*2.4. həmin Qanunun 10-cu maddəsinin dördüncü hissəsində "orqan (qurum)" dedikdə tabeliyindəki tibb müəssisələrinə münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, digər tibb müəssisələrinə münasibətdə isə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi nəzərdə tutulur;*[2]

*2.5. həmin Qanunun 11-ci maddəsinin birinci hissəsinin ikinci cümləsində və ikinci hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi nəzərdə tutulur;*[3]

*2.6. həmin Qanunun 14-cü maddəsinin üçüncü hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə əmək qabiliyyətinin müvəqqəti itirilməsi barədə vərəqənin müddətinin nəzərdə tutulduğundan artıq müddətə uzadılmasına münasibətdə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi, əmək qabiliyyətinin tam itirilməsinin müəyyənləşdirilməsinə münasibətdə isə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.*

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİyev**

**Bakı şəhəri, 15 iyul 2000-ci il**

**№ 367**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 iyul, № 7.- S. 2891-2892.**